# Sahibkarlığın inkişafında mütəxəssisin rolu

1980-cı illərin əvvəllərində Qəbələnin bir sıra kəndlərində geniş üzüm sahələri salındı. Taxılçılıq və digər bitkiçilik üçün o qədər də əlverişli olmayan bu sahələrdə qısa müddətdə bol və keyfiyyətli üzüm yetişdi. Əhalinin güngüzəranı yaxşılaşdı. 1980-cı illərin sonu, 90-cı illərin əvvəllərində baş verən məlum hadisələr nəticəsində ölkənin bütün iqtisadiyyatı kimi üzümçülüyə də böyük zərbə dəydi. Bol məhsul verən bağlar viranəyə çevrildi. Üzüm tənəklərinin qaldırılması üçün istifadə olunan beton dirəklər, məftillər sökülüb aparıldı. Üzümün əvəzinə kütləvi olmasa da ayrı-ayrı fərdlər tərəfindən taxıl əkildi. Ancaq bu ərazilərdə taxıl üzümdən əldə olunan gəlirin heç beşdə birini də əvəz etmədi. Taxıl əkininin qeyri rentabelli olduğunu görən kənd camaatı əvvəllər üzüm əkilmiş sahəni başlı-başına buraxdı. Baxımsız qalan sahələr eroziyaya uğradı, kol-kos basdı.

Əvvəllər üzüm əkilib yaxşı gəlir gətirən və sonralar yuxarıda təsvir etdiyimiz vəziyyətə düşən sahələrdən biri də rayonun Quşlar, Beyli və Savalan kəndləri yaxınlığında yerləşən «Baba Qəmbər» adlı sahə idi. Bir neçə il öncə həmin sahədə kənd əhalisinin, torpaq payçılarının razılığı ilə «ASPİ-AQRO» MMC adlı sahibkarlıq subyekti üzüm bağları salmağa başladı. Bütün işçi qüvvəsi ətraf kəndlərdən cəlb olundu. Qısa müddətdə baxımsız qalmış, ərazidə gözəl bir üzüm bağı yarandı. İllər boyu su görməyən bu əraziyə su çıxarıldı, abadlaşdırıldı. Burada işləyən insanlar üçün hər cür şərait yaradıldı. İstirahət otaqları, duşxana onların istifadəsindədir.

Üzüm bağının məhsuldarlığı ildən-ilə artır. Burada həm texniki, həm də süfrə üzümü yetişdirilir. Üzüm sahəsinin lap yaxınlığında Savalan və Qaradeyn kəndləri arasında «ASPİ-AQRO» MMC tərəfindən dünyanın ən qabaqcıl texnologiyaları ilə təchiz olunmuş şərab zavodu inşa edilmişdir. Şərab zavodunun məhsulları təkcə ölkədə yox, sərhədlərimizdən kənarda da məşhurdur.

«ASPİ AQRO» MMC ətraf kəndlərin ictimai işlərinə də öz töhfəsini verir. Belə ki, yaxınlıqdakı Quşlar kənd tam orta məktəbin yanacaqla təmin olunmasına, Savalan kəndindəki Qaraçay üzərindəki dağılmış körpünün bərpa olunmasına öz köməyini göstərmişdir.

«ASPİ AQRO» MMC-nin işinin uğurlu olmasında, kənd əhalisi üçün etibarlı və daimi bir iş yerinə çevrilməsində sözsüz ki, müəssisənin pəhbəri Əjdər Şəfizadə ilə birlikdə digər işçilərin, mütəxəssislərin də böyük rolu vardır. Belə mütəxəssislərdən biri də sahənin aqronomu Oqtay Əzizovdur. Oqtay Əzizov o vaxtkı SSRİ-nin ən nüfuzlu təhsil müəssisələrindən biri olan Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasını müvəffəqiyyətlə başa vurduqdan sonra doğma Qəbələyə qayıtmış, o vaxt Qəbələdə ən böyük və qabaqcıl kolxoz olan Miçurin adına kolxozda baş aqronom işləmişdir. İnsanlarla işləmək və təşkilatçılıq qabiliyyətinə görə rayonda bir sıra rəhbər vəzifələrə irəli çəkilmiş və burada yüksək fəaliyyət göstərmişdir.

Oqtay Əzizov «ASPİ- AQRO» MMC-nin rayonumuzda üzüm bağları salmasına başladığı ilk gündən bu cəmiyyətin aqronomudur. Üzüm bağlarında becərmə işlərinin hamısının vaxtında aparılması, xəstəliklərə qarşı önləyici tədbirlərin görülməsi və sair işlər Oqtay Əzizovun nəzarətindədir. Uzun illərin təcrübəsi sayəsində Oqtay Əzizov sanki hər bir üzüm tənəyinin nəyə ehtiyacı olduğunu ilk baxışdan duyur. Üzüm sahəsində çalışan hər bir işçi Oqtay Əzizova yaxşı bir mütəxəssis, yaxşı bir insan kimi dərin hörmət bəsləyir.

Hazırda üzüm bağlarında yazqabağı işlər görülür, Oqtay Əzizov deyir ki, qışın yaxşı keçməsi, becərmə işlərinin vaxtında və keyfiyyətlə aparılması göstərir ki, Allahın köməyi ilə sahələrdən bol məhsul götürəcəyik.

Xeyirli olsun!

**Çələbi DÖNMƏZ.**

# «Molla Nəsrəddin»də yazarlar və imzalar

«Molla Nəsrəddin» jurnalı bu gün də mətbuat tariximizin ən parlaq səhifəsini təşkil edir. 1906-cı ilin 7 aprelində işıq üzü görən jurnal 25 il fəaliyyət göstərmişdir.

Müəyyən fasilələrlə nəşr olunan «Molla Nəsrəddin» 1906—1918-ci illərdə Tiflisdə, 1920—1921-ci illərdə Təbrizdə, 1922—1931-ci illərdə isə Bakıda nəşr olunub.

«Molla Nəsrəddin» jurnalının baş redaktoru Cəlil Məmmədquluzadə onun ən yaxın köməkçisi və məsləkdaşı isə Ömər Faiq Nemanzadə idi. Jurnalın ilk nömrəsini onlar birlikdə hazırlamışlar.

«Molla Nəsrəddin» elə birinci nömrədən oxucuların rəğbətini qazandı. Cəlil Məmmədquluzadənin dediyi kimi «Molla Nəsrəddin»i təbiət özü yaratmışdı».

Jurnala az sonra görkəmli şair və yazıçılar—Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Mirzəli Möcüz Şəbüstəri, Əbdürəhimbəy Haqverdiyev, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi və başqaları qoşuldular.

«Molla Nəsrəddin» jurnalının dolğun, mənalı olmasında onun rəssamları Oskar Şmerlinq, İ. Rotter və Əzim Əzimzadənin də böyük rolu vardır. Təbrizdə çap olunduğu dövrdə isə jurnalın rəssamı Əli Behzad idi.

Molla Nəsrəddin jurnalının əsas əziyyətini Cəlil Məmmədquluzadə çəksə də jurnal kollektiv əmək sayəsində çıxırdı. Mirzə Cəlil bunu o zaman etiraf edir və deyirdi:

«Molla Nəsrəddin» tək bir nəfər müəllifin əsəri deyil, Molla Nəsrəddin mənim bir neçə əziz yoldaşımın qələmlərinin məcmuəsidir ki, mən də onların ağsaqqal yoldaşıyam». Mirzə Cəlil jurnalda Molla Nəsrəddin təxəllüsü ilə çıxış etsə də bəzən «lağlağı», «dəli», «dəmdəməki», «cırcırama», «hərdəmxəyal» imzalarından istifadə edirdi.

İnqilabi satiranın banisi olan Mirzə Ələkbər Sabir Molla Nəsrəddində Cəlil Məmmədquluzadədən sonra ikinci qüdrətli qələm sahibi idi.

«Hophor», «ağlar güləyən», «Əbunəsr Şeybani», «Çingiz bəy» imzaları Sabirə məxsusdur. M. Ə. Sabirin jurnalda çıxan ilk şeiri «Millət necə tarac olur-olsun» şeiridir.

Bu şeir «Niyə məni döyürsünüz» felyetonu ilə birlikdə çap olunmuşdur. Mirzə Ələkbər Sabir başqalarının taleyi ilə maraqlanmayanları onların öz dili ilə kəskin şəkildə tənqid edirdi. «Bir utan», «Qurban bayramı», «Bizə nə», «Ey pul», «Paradır» və s, satiralarında M. Ə. Sabir cəmiyyətdəki ziddiyyətləri göstərir, özünün vətəndaşlıq mövqeyini ifadə edirdi.

Molla Nəsrəddin»in digər əməkdaşı Əli Nəzmi jurnalda «Sicimqulu» imzası ilə çıxış edirdi. O, «Əcəb», «İnam», «Qorxuram» şeirlərini Molla Nəsrəddin jurnalında dərc etdirmişdir.

Molla Nəsrədinçilər yerli hökumətin, senzuranın təqiblərinə görə əsl adları ilə deyil, gizli imzalarla çıxış edirdilər.

Görkəmli yazıçı və dramaturq Əbdürəhimbəy Haqverdiyev «Xortdan», «Ceyranəli», «Mozalanbəy», Məmməd Səid Ordubadi—«Hərdəmxəyal», Ömər Faiq Nemanzadə—«Unudar», Əliqulu Qəmgüsar—«Cüvəllağı bəy», Əli Məhzun—«Yetim cücə», Salman Mumtaz—«Xortdan bəy» imzaları ilə sap olunurdular. O dövrün ictimai-siyasi hadissələri jurnalda daim öz əksini tapırdı.

Mirzə Cəlil böyük arzularla yaşayırdı. O, geridə qalmış, insanları ictimai həyatda fəallığa çağırır, azad həyat uğrunda mübarizəyə səsləyirdi.

Molla Nəsrəddin dilimizin saflığı uğrunda da mübarizə aparırdı. Jurnal doğma dilimizi yad sözlə zəhərləyənləri, onu zorla xarici dillərlə əvəz etməyə çalışanları tənqid edirdi.

Azərbaycan dilini yad təsirlərdən qorumağa çalışan jurnal əvvəldən axıra kimi bu xətti diqqət mərkəzində saxlayırdı. Jurnalda bir çox felyeton, karikatura və satirik şeirlər bu məsələyə həsr olunub. «Dil», «Zəncir», «Bizim obrazovonlular» kimi felyetonlar buna misal ola bilər.

Molla Nəsrəddinçilərin yaradıcılığında təhsil probleminə münasibət xüsusi yer tutub. Bu da təsadüfi deyil ki, millətin geridə qalmasının mühüm səbəblərindən biri təhsillə bağlı olub. Üzeyir Hacıbəyli «Millət geri qaldı» felyetonunda əhalinin savadsızlığını bu geriliyin səbəblərindən biri kimi diqqətə çatdırır və elm öyrənməyə səthi yanaşanları tənqid edirdi.

Molla Nəsrəddin jurnalı qadın azadlığı məsələlərinə də xüsusi fikir verir, qadınların müdafiəçisi kimi çıxış edir, qızların təhsili qayğısına qalırdı. Jurnalda nəşr olunan «Xanımlar», «Dövlət məsələsi», «Təzə falçı, «Qaynana», «Keçən günlər», «Məryəm xanım» və s. felyetonlar qadın azadlığı məsələsindən bəhs edir. Mövzu baxımından geniş əhatə dairəsi olan «Molla Nəsrəddin» jurnalı orta Asiya xalqlarını, Kazan və Krım tatarlalarını da diqqətində saxlayıb, onların problemlərini işıqlandırıb çıxış yollarını göstərib.

«Molla Nəsrəddin»in tarixi mübarizəsinin böyüklüyü onda idi ki, XX əsrin əvvəlləri Azərbaycan həyatında baş verən eybəcərliklərə qarşı çevrilmişdi. Vətən və xalq üçün çırpınan ürəyi xatırladırdı. Bu vətəni və xalqı hər cür ictimai rəzalətlərdən xilas etmək, onu müasir dünyanın qabaqcılları sırasına çıxarmaq arzusu ilə çırpınan ürək idi.

Cəlil Məmmədquluzadənin zəngin bədii irsi, onun «Molla Nəsrəddin» jurnalı təkcə Yaxın və Orta Şərqdə, Azərbaycanda deyil, İran və Türkiyədə də ədəbi-ictimai fikrin, milli oyanış hərəkatının inkişafına qüvvətli təsir göstərmişdir.

**Aysel SÜLEYMANOVA,**
**Bum qəsəbəsi.**

# Şəhidlər unudulmur

Azərbaycan ordusu aprel ayının 2-də keçirdiyi əməliyyatlar nəticəsində Erməni ordusunu geri çəkilməyə məcbur edərək xeyli canlı qüvvəsini və texnikasını məhv etmişdir. Bununla yanaşı Azərbaycan ordusunun da ittkiləri olmuşdur. Bu şəhidlər öz canlarını namusqeyrət, Vətən uğrunda vermişlər. Hər bir yerdə olduğu kimi Vəndam qəsəbəsində də şəhidlərimizin xatirəsi ehtiramla anılmışdır. Əvvəlcə şəhidlər xiyabanına gələn qəsəbə sakinləri, şəhidlərimizin xatirəsini 1 dəqiqəlik sükutla yad etmişlər. Xatirə lövhəsinin qarşısına əkilil qoyulduqdan sonra çıxışlar oldu. Ağsaqqalar şurasının Vəndam qəsəbəsi üzrə nümayəndəsi Ağasəddin Nəsirov Vəndam qəsəbə İƏ nümayəndəsi İlham Bağırov, gənclərdən Daşqın Eyyubov və başqaları bu müharibəni törədən ermənilərə lənət oxudular. Qoy ermənilər sevinməsinlər ki, Azərbaycan ordusu şəhid verib. Azərbaycanda 1 şəhid əvəzinə yüzlərlə igidlərimiz doğulur. Qəsəbə gəncləri torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın əmrini gözlədiklərini vurğuladılar. Sonda şəhidlərimizin xatirəsinə ehsan süfrəsi açıldı, və «Qurani Kərimdən ayələr səsləndi.

Başın sağ olsun, Vətən!

**Azər AZAYEV,**
**Vəndam qəsəbə sənətkarlıq evinin direktoru.**